## *Hərbi liseylərə*
## *2025/2026-cı tədris ili üçün sənəd qəbulu*

**Ümumi məlumat:**

**Tədris dili: Azərbaycan dili** **Təhsil forması: əyani** **Təhsil müddəti: 2 il**

Cari ildə15 yaşı tamam olan və 17 yaşı tamam olmayan, ümumitəhsil pilləsininin ümumi orta təhsil səviyyəsini bitirmiş, kişi cinsli Azərbaycan Respublikasının vətəndaşları qəbul edilirlər.

### SƏNƏDLƏRİN QƏBULU:

Hərbi liseylərə qəbul olmaq istəyən namizədlər 3 fevral 2025-ci il tarixindən 31 may 2025-ci il tarixinədək ərizə ilə müraciət etməlidirlər. Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:

1. **Anket forması**
2. **Doğum haqqında şəhadətnamənin surəti**
3. **Valideynlərin və ya qəyyumlarının razılıq ərizələri**
4. **Şəxsiyyət vəsiqəsinin surəti və ya yeni nəsil şəxsiyyət vəsiqəsindən çıxarış**
5. **Ailə tərkibi və yaşayış yeri haqqında arayış**
6. **Rəngli fotoşəkil (baş geyimsiz, anfas) 6 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4.5x6 sm**
7. **Tibb üzrə:**
   **•Psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.**
   **•Xroniki və son 12 ay ərzində keçirdiyi yoluxucu və parazitar xəstəliklərə görə dispanser qeydiyyatında olub-olmaması barədə məlumatlar, ambulator xəstənin tibbi kartı (olunmuş peyvəndlər haqqında məlumat), stasionar xəstənin tibbi kartından çıxarışlar (forma № 27/U), rentgenoqramlar, xüsusi müayinə metodlarının protokolları və vətəndaşın səhhətini xarakterizə edən digər tibbi sənədlər (məktəblinin tibb kartası – forma № 26/U)**

**_HƏRBİ LİSEYLƏRƏ QƏBUL AŞAĞIDAKI QAYDADA HƏYATA KEÇİRİLİR_**

1.Hərbi həkim komissiyası tərəfindən Hərbi liseydə təhsil almağa yararsız hesab olunan və öyrənilmə tədbirləri keçirilən zaman barəsində Hərbi liseyə qəbula mane olan digər hallar müəyyən edilən şəxslər Hərbi liseydə təhsil almaq üçün namizədlər siyahısına daxil edilmirlər.

2.Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı Hərbi liseyə qəbulla bağlı keçirilən müsabiqədə iştirak etmələri məqsədilə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir.

3.Namizədlərin Hərbi lisseylərə qəbulu müvafiq tədris ilində ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı verən abituriyentlərin buraxılış imtahanında əldə etdikləri nəticələrə əsasən Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçirilir.